# YADDAŞ ƏTIRLI ÖMÜR YOLU






Müasir Azərbaycan ədəbiyyatının tanınmış istedadlı nümayəndələrindən biri də Balayar Sadiqdir. Bu cümlənin açımını görkəmli şairimiz Balayar Sadiqdir. Bu cümlənin açımını görkəmli şairimiz Balayar Sadiqin öz yaradıcılığında tapırıq:

Xatirələr əl edir,
Bu küçənin boyunca.
Əyilib izlərini,
Bu gün öpüm doyunca.

Məktub şeirindən götürülən və kitabın üçüncü səhifəsində - kitabın açılışındakı bu bəndi açıqlayaq: «Xatirələr əl edir» deyiminin poetikliyi göz qabağındadır. İkinci bəndin ilk misrasının doğurduğu təəssüratın görüntüsü -- sanki arxadan səni kim isə əl etməklə çağırır. Xatirəyə dönmək, olub keçənləri xatirlamaq, xatirələrin əl etməsiylə, gözəl poetik olmaqla cəmi üç sözdə poetik bir obraz yaratmaq hər şairə qismət olan uğur deyil...

...Oxusan da çox sağ ol,
Sağ ol, oxumasan da.
Bir göz yaşı buğlanır,
Hər gün yazı masamda.

Oxucuya belə bir səmimiyyətlə üz tutan, hər iki halda (oxusa, oxumasa da) incimir. «Bir göz yaşı buğlanır» - ifadəsinə baxın: - göz yaşı isti olduğundan buğa çevrilir, buxarlanır. Bu görüntünü obrazlı bir dillə, yüksək poetik ovqatlı deyilişlə şair öz yaşantısını ustalıqla verir, fikrinin davamı, «hər gün yazı masamda» misrasıyla tamamlanır. Hər gün yazı masasında göz yaşı buxarlanan sənətkarın, hər masa arxasında olanda səssizliklə- sükutla göz yaşı tökür. Bu «Yaddaş sirri» kitabındakı məktub şeirinin son - tamamlayıcı bəndidir.

Müəllifin oxucuya ünvanladığı bu ilk şeir «məktub» adlanır - biz ikinci bənddən «xatirələr əl edir»lə ötən keçmişimizin kodlaşmış yaddaşıyla görülərkən, həmin bənddə «əyilib izlərini öpdüm» deyən şair bir bədii tablo yaratdığını da bildiririk. Beşinci, sonuncu bənddə, ötən xatirələri yazarkən, «bir göz yaşı buğlanır» lövhəsini görürük...

«Yaddaş ətri» kitabının bir «məktub» şeiriylə çatdırığı hiss və duyğular deyilən fikri bütün təravətiylə, ətriylə çatdırmasını yaddaş ətri deyəndə, xatirələrin bağışladığı emosiyaların ətri olduğu nəzərdə tutulduğunu da düşünürük... qənaətinə gəlir və usdad sənətkarımızı oxucu qənaətiylə alqışlayırıq...

Kitabda ikinci şeir «Pəncərə» adlanır. Şeirin birinci bəndindəki sonuncu misranın səmimiyyəti gözəl duyğular aşılayır. Müəllifin tək bircə misrasıyla, sevən bir şəxsin sevdiyi kəsin başına misra-misra dolanmasının təbiiliyi -- rəsmi şairin poetik dünyasının, dilinin obrazlılığı həyəcan ovqatlı hisslər yaşadır. Şeir təsirləndirirsə, duyğulandırıb düşündürürə bilirsə əsil poeziya nümunəsidir, fikrini ürəklə deyirik.

Yenə həmin şeirin ikinci bəndində:

Mənim səni unutduğum zamanın,
Üzündəki qızartını oxu sən.

- fikrinə güzgü tutaq: - «Zamanın üzündəki qızartını oxu sən». Sevən bir aşiqin sevdiyini unutduğu vaxtın-zamanın üzündəki qızartını göz demir, oxu deməyi də yerinə düşür. Bu oxuda bir bax işarəsi də var. Bu baxışların peşimançılıq hisslərindən doğulan heyifsilənməkdən, utanmaqdan doğan üz qızartısıdır.

Bir daha həmin şeirin üçüncü bəndinin üçüncü misrasına fikir verək:

...Payız gəlib, doluxsunub ümidim,

Payız fəsli fəsillərin ən kövrəyi, həssas fəsli olduğu məlumdur. Ancaq insana məxsus ən gərəkli, mənəvi yüklü söz ümiddir. «Doluxsunub ümidim» deyimi, öz obrazlılığıyla diqqətimizi çəkir, bizi ümidli olmağa səsləyir. Doluxsunan ümidin sonunda, bir payız yağışı yağa bilər. Belə yağış, doluxsunan ümidi sakitləşdirər, toxdadar qənaətinə gəlirik.

Və yenə də, bir daha həmin şerin dördüncü bəndinə meydan açaq:

...Göz yaşından köynək geyən sevginin

misrası deyir ki, incimiş sevgilinin göz yaşı tökməsi elə də qorxulu deyil, çünki köynək geyinib, daxili narahatlığı göz yaşıyla əritmək olur. «Köynək geyən» ifadəsində isə incimiş xanımın ağlamaqdan yaxası elə islanıb ki, sanki köynəyin üstündən bir yağış rəngli köynək geyinib, fikrinə təhtəlşüur olaraq inanırıq...

Keçək şerin beşinci bəndindəki üçüncü misraya - «Gözlərimin pəncərəsi üşüyür». Deyimin, ifadənin, oxşatmanın-yanaşmanın poetikliyi oxucunu düşündürür, həyəcanlandırır, duyğulandırır. «Gözlərimin pəncərəsi» deyimi təzədir, yenidir, uğurdur.

Və nəhayət, gələk şeirin sonuncu - altıncı bəndinə:

«Göz yaşlarım dərdim üstə sətirdi»

Adətən, yağış vaxtı çətir götürərlər. Sinə altında olan dərdə, göz yaşının çətir tutması təzadlı olsa da (yağışa görə çətir tutulduğu halda, göz yaşına çətir deyilməsi), burda bir qeyri-müəyyənlik olsa da, axan göz yaşı ürəkdə-qəlbdə olan dərdi yüngülləşdirməklə, dərdə çətir tutmuş olmağı anlamına gəlinməsi çox uğurlu alınıb.

Bu ömürdən çoxdan çıxıb gedərdim.

Bu misrada köçüb gedərdim yox, ömürdən gedərdim deyilməsi şairin sözə yanaşmasının təzə forması kimi səslənməyi, təbii səslənir, xoş ovqat yaradır ki, poeziyanın da əsas missiyası insanı yaşatmağa səsləməlidir. Müəllifin lirik «məni» ömürdən çıxıb getmədiyinin səbəbini sonrakı (və şeirin sonuncu misrası), «Yaşamağım təkcə sənə xətirdir» misrası sevilənin xatirinə yaşamağa dəyər» fikrini də asılmağı uğurlu bir sonluğa xidmət edir.

Müəllifin «Yaddaş ətri» kitabından cəmi ilk iki şeirdən aldığım təəssüratı xırdalamağa çalışdım. Kitabdan oxu zamanı aldığım mənəvi töhvəyə görə, istedadlı şair qardaşına, səmimiyyət ilə könüllərə xoşluq gətirən görkəmli şairimizə dərin minnətdarlığımı bildirirəm...

«Yaddaş ətri» kitabı Balayar Sadiqin yeni bir ədəbi uğurudur. Kitabın üzündəki ağac şəkli ürəyə bənzəyir. Bu ağac şair ürəyinin poeziya ətirli, qoxuların gəlməsi, ədəbi zövqlərin formalaşmasına xidmət edən bir mənəviyyat mənbəyidir, - desək fikrimizi dolğun çatdırmış olarıq...

Ədəbiyyatımızın - poeziyamızın - publisistikamızın bir Balayar Sadiqi, öz könülələri duyğulandıran, ümid verən, gələcəyə səsləyən yaradıcılığıyla neçə illərdir ki, yola çıxıb - sənət yoluna... Başladığı ilk poetik cığır, böyüyüb yola dönüb. Müəllifin yola dönən mənalı ömür yolu hələ neçə-neçə poeziya şeirləri mənən zənginləşdirməklə, xalqımızın övladlarına xidmət edəcəkdir.

Ömür yolun, sənət yolun həmişə «yaddaş ətirli» olsun, əziz qələm qardaşım.



***Adil ABDULLA,***
***"Gənclik" nəşriyyatının direktoru,***
***Əməkdar mədəniyyət işçisi***